

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 104 (21.765)

2 iyun 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



“Şahdəniz Mərhələ 2” üçün inşa olunan iki platformadan birinin – yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin iyunun 1-də Bibiheybətdəki Azfen tikinti-quraşdırma sahəsindən Xəzər dənizindəki “Şahdəniz” müqavilə sahəsinə yolasalma mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Prezident İlham Əliyev və BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qəri Counz “Şahdəniz Mərhələ 2” üçün inşa olunan iki platformadan birinin üst tikililərinin dənizə yola salınmasını bildirən düyməni basıblar.

## K.C.Cəfərovun Naxçıvan Muxtar Respublikasının Şərur Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Kamal Camal oğlu Cəfərov Naxçıvan Muxtar Respublikasının Şərur Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 1 iyun 2017-ci il*

## İ.İ.Məmmədovun Naxçıvan Muxtar Respublikasının Şərur Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

İbrahim İsmayıl oğlu Məmmədov Naxçıvan Muxtar Respublikasının Şərur Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 1 iyun 2017-ci il*

## K.C.Cəfərovun Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamal Camal oğlu Cəfərov Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**
*Naxçıvan şəhəri, 1 iyun 2017-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Niderlandın ölkəmizdəki səfiri ilə görüşüb



İyunun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Onno Kervers ilə görüşüb.

Ali Məclisin Sədri Niderland Krallığının ölkəmizdəki səfirlərinin 2012-ci ildən etibarən muxtar respublikaya mütəmadi səfər etdiklərini və bunun nəticəsi olaraq Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Niderland Krallığı arasında iqtisadi-ticarət əlaqələrinin qurulduğunu diqqətə çatdırıb. Hazırda iqtisadi-ticarət əlaqələrinin davam etdirildiyini bildirən Ali Məclisin Sədri kənd təsərrüfatı texnikalarının, tibbi avadanlıqların və dərman vasitələrinin alınması sahəsindəki əməkdaşlıqdan danışıb.

Söhbət zamanı Ali Məclisin Sədri ali təhsil müəssisələri arasında, eləcə də kənd təsərrüfatı sahəsində əlaqələrin yaradılmasının əhəmiyyətini vurğuladı, səfirə diplomatik fəaliyyətində uğurlar arzuladı.

Səfir Onno Kervers Nuhun vətəni qədim Naxçıvana ilk dəfə səfər etdiyini və burada olmaqdan məmnunluğunu ifadə etdi. Niderland Krallığının Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini və mövcud əməkdaşlığın səmərəli olduğunu diqqətə çatdıran səfir ikitərəfli münasibətlərin inkişafında səylərini artıracağını qeyd etdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda Uşaqların Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir keçirilib

İyunun 1-də – Uşaqların Beynəlxalq Müdafiə Günündə Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksində festival keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda çıxış edərək demişdir: Bu gün sizinlə birlikdə Uşaqların Beynəlxalq Müdafiə Gününü qeyd edirik. O cəmiyyət möhkəmdir ki, o dövlət inkişaf edərək irəli gedir ki, o xalq xoşbəxt gələcəyə malikdir ki, orada uşaqlara qayğı var. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də ölkəmizin gələcəyinin təminatçısı olan uşaqlara qayğını dövlətin əsas vəzifəsi hesab edərək deyirdi ki, ***“Uşaqlara qayğı hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Uşağa qayğı göstərmək, uşaqları qorumaq, onları müdafiə etmək bizim vətəndaşlıq borcumuzdur”.***

Ali Məclisin Sədri demişdir: Ulu öndərimizin Azərbaycan gənclərinə və uşaqlara böyük diqqət və qayğısının bəhrələri bu gün müstəqil dövlətimizdə aydın görünür. Bu diqqətin nəticəsidir ki, Azərbaycanda uşaq hüquqları etibarlı şəkildə qorunur. Uşaqların sağlam mühitdə böyümələri üçün bütün tədbirlər görülür. Dövlət uşaq siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan yeganə ölkədir ki, müharibə şəraitində olmasına baxmayaraq sosial sahəyə, ana və uşaq hüquqlarının qorunmasına diqqət göstərilir, dövlət proqramları qəbul edilir. Uşaqların istedadlarının üzə çıxarılması, biliklərinin artırılması dövlət orqanlarının həyata keçirməli olduğu əsas tədbirlər sırasındadır. Bu istiqamətdə həyata keçirilən mühüm tədbirlərdən biri də “Ölkəmizi tanıyaq” layihəsidir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasında da uşaqların inkişafı, onların cəmiyyətin layiqli üzvü kimi yetişməsi diqqətdə saxlanılır. Ötən müddət ərzində uşaqların təhsili sahəsində mühüm işlər görülmüş, şəhər, qəsəbə və kəndlərimizdə ümumtəhsil məktəbləri istifadəyə verilmiş, maddi-texniki bazası gücləndirilmişdir. Məktəblərimizdə informasiya texnologiyalarının son nailiyyətləri olan avadanlıqlar quraşdırılmışdır. Bu tədbirlər sayəsində kəndlə şəhər arasında fərq aradan qaldırılıb. Muxtar respublikada məhdud fiziki imkanlı uşaqların da təhsilə cəlb olunması və reabilitasiyası diqqət mərkəzindədir. Bu məqsədlə Dövlət Proqramı qəbul edilmiş, audio və elektron kitabxana, Distant Tədris Mərkəzi yaradılmış, Uşaq Bərpa Mərkəzinin fəaliyyəti gücləndirilmişdir. Muxtar respublikamızda uşaqlar asudə vaxtlarını da səmərəli keçirirlər. Gənc nəslin ixtiyarına böyük infrastruktur sahələri, Uşaq Kitabxanası, Dövlət Uşaq və Kukla teatrları, Uşaq Filarmoniyası, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, şahmat və uşaq musiqi məktəbləri, məktəbdənkənar tərbiyə müəssisələri, idman obyektləri və Ağbulaq İstirahət Mərkəzi verilmişdir.

Ali Məclisin Sədri demişdir: O uşaq hərtərəfli inkişaf edir ki, o sağlam olsun. Ona görə də uşaqların sağlamlıqlarının qorunmasına diqqət artırılır. Muxtar respublikada yaradılan müasir səhiyyə infrastrukturu, mütəmadi olaraq aparılan profilaktika və müayinə tədbirləri gələcəyimiz olan gənc nəslə göstərilən qayğının ifadəsidir. Həyata keçirilən tədbirlər, görülən işlər nəticəsində muxtar respublikada istedadlı və sağlam nəsil yetişib. İstedadlı nəsil – parlaq gələcək deməkdir. Bu mənada istedadlı uşaqların aşkara çıxarılması üçün müxtəlif tədbirlər, bilik və yaradıcılıq müsabiqələri, sərgilər, idman yarışları keçirilir. İstedadlı uşaqların adları Naxçıvan Muxtar Respublikası gənc istedadlarının “Qızıl kitabı”na yazılır, onlar Ali Məclis



*Ardı 2-ci səhifədə*







Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülürlər. Biz əminik ki, gələcəkdə adları “Qızıl kitab”a yazılan istedadların sayı daha da artacaqdır.

“Uşaqlara qayğı yalnız dövlət qurumlarının yox, hamının mühüm vəzifəsi olmalıdır. Uşaqların xalqımıza xas olan milli dəyərlər ruhunda tərbiyə olunması, təhsilli, vətənpərvər və sağlam yetişmələri bizim hamımızı düşündürməli, cəmiyyətin bütün təbəqələri dövlət uşaq siyasətinin həyata keçirilməsinə öz töhfəsini verməlidir”, – deyən Ali Məclisin Sədri Uşaqların Beynəlxalq Müdafiə Günü münasibətilə uşaqları təbrik etmiş, onlara yaxşı təhsil almalarını, Vətənə layiqli övlad kimi böyümələrini arzulamış, uşaqlara müraciətlə çıxışını ümummilli liderimizin fikirləri ilə tamamlamışdır: ***“Azərbaycanın gələcəyi sizinlə bağlıdır, sizin istedadınızla, gələcək fəaliyyətinizlə bağlıdır”.***

Sonra Ali Məclisin Sədri təhsil, idman, musiqi, rəsm və tətbiqi sənət sahələrində nailiyyətlərinə görə fərqlənən uşaqlara hədiyyələr təqdim etmişdir.

Tədbirin aparıcıları qeyd etmişlər ki, muxtar respublikada uşaqlara göstərilən qayğını hər gün görür və hiss edirik. Bizim yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında tərbiyə olunmağımız və təhsil almağımız dövlətimizin diqqət mərkəzindədir. Muxtar respublikada uşaqlar üçün yaradılan şəraitin nəticəsidir ki, asudə vaxtımızı səmərəli keçirir, məktəbdənkənar tərbiyə müəssisələrinin dərnəklərində fəal iştirak edir, istedadımızı artırırıq. Bugünkü festivalda da uşaqlar öz istedadlarını nümayiş etdirəcəklər. Uşaqların Beynəlxalq Müdafiə Gününün yüksək səviyyədə keçirilməsi muxtar respublika rəhbərinin uşaqlara diqqətinin əyani ifadəsidir.

Tədbirin aparıcıları bu diqqət və qayğıya görə bütün uşaqlar adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildirmiş, festivalı açıq elan etmişlər.

Festivalın bədii hissəsində Naxçıvan Dövlət Uşaq Filarmoniyasının Xalq çalğı alətləri ansamblının ifasında xalq mahnılarımız və muğamlar səslənmişdir. Gənc Heydərçilər ümummilli liderimizə həsr olunmuş şeiri bədii qiraət etmiş, uşaq bağçalarının, məktəbdənkənar təhsil müəssisələrinin, o cümlədən uşaq musiqi məktəblərinin mahnı və rəqs ansamblları maraqlı nömrələr təqdim etmişlər.

Festivalda muxtar respublikanın ümumtəhsil məktəblərində və məktəbdənkənar təhsil müəssisələrində fəaliyyət göstərən müxtəlif dərnəklərin üzvü olan istedadlı uşaqların hazırladıqları əl işləri – dekorativ, tikmə, toxuma və rəsm əsərlərinin, müxtəlif maketlərin və uşaq məhsullarını istehsal edən müəssisələrin məhsullarının sərgi-satışı təşkil olunmuşdu.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

---

*2 iyun mülki aviasiya işçilərinin peşə bayramı günüdür*

## Naxçıvan Beynəlxalq Hava Limanında sərnişinlərə nümunəvi xidmət göstərilir




***Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 may tarixli Sərəncamına əsasən iyunun 2-si hər il ölkəmizdə mülki aviasiya işçilərinin peşə bayramı günü kimi qeyd edilir.***

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə milli aviasiyanın inkişafı sahəsində böyük uğurlar qazanılmışdır. Ötən əsrin 70-ci illərində respublikanın 11 rayonunda yeni hava limanları tikilmişdir. 1976-1980-ci illər üçün Azərbaycanda Mülki Aviasiyanın inkişaf proqramı hazırlanmış, bölgələrdə reaktiv təyyarələrin qəbulu üçün qalxma-enmə zolağı salınmış, hava limanları müasir radio və işıq texnikası vasitəsilə təchiz edilmişdir. Mülki aviasiyanın ölkə həyatındakı rolunu yüksək qiymətləndirən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqillik dövründə bu sahədə daha geniş tədbirlər görülmüşdür.

Azərbaycanın əsas ərazisindən təcrid olunmuş şəraitdə yaşayan Naxçıvanın nəqliyyat problemlərinin həllinə ümummilli liderimiz xüsusi diqqət yetirmiş, hələ 1976-cı ildə Naxçıvanda hava limanı tikilib istifadəyə verilmişdi. Ötən əsrin 90-cı illərində Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə bağlayan bütün nəqliyyat-kommunikasiya əlaqələri kəsiləndən, muxtar respublika Ermənistan tərəfindən blokadaya salınandan sonra sərnişin və yük daşınması kiçiktutumlu təyyarələri qəbul etmək imkanı olan bu hava limanı vasitəsilə həyata keçirilirdi. Bu dövrdən etibarən Azərbaycanın digər bölgələri ilə əlaqənin yeganə mümkün forması olan hava yolu yerli əhali üçün həyati əhəmiyyət daşımağa başladı. 1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan dahi şəxsiyyət limanın uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu iş yerli mütəxəssislər cəlb olunmaqla qısa müddət ərzində həyata keçirilmişdir. Sonrakı illərdə hava nəqliyyat növünə tələbatın artması Naxçıvanda daha müasir hava limanının tikilməsini zərurətə çevirmişdi. Bunu nəzərə alan ulu öndər hava limanının yenidən qurulması barədə qərar qəbul edərək 2002-ci il avqustun 11-də bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirmişdir. 2002-ci il oktyabr ayının 1-də inşasına başlanan limanda tikinti-quraşdırma işləri ən müasir tələblər səviyyəsində həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, eləcə də muxtar respublikada aviasiya sahəsində kompleks tədbirlər həyata keçirilir. Bu sahədə görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikasında da mülki aviasiya sisteminin müasirləşdirilməsi diqqət mərkəzində saxlanılmış, 2004-cü ilin aprel ayında hava limanına Beynəlxalq Hava Limanı statusu verilmişdir. Son illər həyata keçirilən kompleks quruculuq tədbirləri Naxçıvan Beynəlxalq Hava Limanını müasir inkişaf mərhələsinə çıxarmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 2014-cü ildə hava limanının yeni inzibati binası və 2015-ci ildə “Şərq Terminalı” istifadəyə verilmişdir.

Aerovağzal kompleksinin yenidən qurulması işləri 2016-cı ilin sentyabr ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə “Qərb Terminalı”nın istifadəyə verilməsi ilə yekunlaşmışdır. Həm “Şərq”, həm də “Qərb” terminallarının yenidən qurulması zamanı Beynəlxalq Mülki Aviasiya Təşkilatının, Beynəlxalq Mülki Nəqliyyat Assosiasiyasının tələb və tövsiyələrinə cavab verən, Azərbaycan Respublikasında istifadəsinə icazə verilmiş ən müasir texnologiyalardan, uçuşların və aviasiya təhlükəsizliyini təmin edən avadanlıqlardan istifadə olunmuşdur. Aerovağzal kompleksinin yenidən qurulması illik sərnişin dövriyyəsinin və yükdaşımaların artırılmasında mühüm rol oynamışdır. Terminal binasında quraşdırılan eskalatorlar, lift avadanlıqları və teleskopik traplar sərnişinlərə təqdim olunan xidmət səviyyəsinin yüksəldilməsinə yönəlmişdir. Hava limanının hər iki terminalında beynəlxalq səviyyəli uçuşların həyata keçirilməsi üçün sərhəd nəzarəti, tranzit sərnişinlər üçün zal, aviasiya təhlükəsizliyi nəzarəti sahələri fəaliyyət göstərir. Terminal binasının birinci mərtəbəsində hərbi qulluqçular üçün zal, tibb məntəqəsi, hər iki mərtəbədə ana və uşaq otaqları istifadəyə verilmiş, digər xidmət sahələrinin fəaliyyəti təmin edilmişdir.

Son illər muxtar respublikada hava nəqliyyatının inkişafı sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq Ordubad və Şərur şəhərlərində müasir aviakassa binaları tikilib istifadəyə verilmiş, sərnişinlərin rahatlığı və xidmət səviyyəsi yüksəldilmişdir. Hazırda hava limanının Karqo yük terminalında personalın iş şəraitinin yaxşılaşdırılması, yüklərin təhlükəsiz daşınması və qəbulu üçün Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələb və tövsiyələrinə uyğun yenidənqurma işləri aparılır. Hava gəmilərinə xidmət edən yerüstü texnikanın, əl yükü və baqajların yoxlanması üçün texniki vasitələrin sazlığına daim diqqət yetirilir. Qış aylarında muxtar respublikada havaların soyuq və qarlı keçməsinə baxmayaraq, uçuşların intensivliyi və təhlükəsizliyi tərtib olunmuş proqram əsasında təmin edilmişdir.

Müasir infrastrukturun yaradılması və xidmət sahələrinin genişləndirilməsi ixtisaslı kadrlara və mütəxəssislərə olan tələbatı da artırır. Hava limanında bu məsələ diqqətdə saxlanılır, müasir xidmət tələblərinə cavab verən gənclər işə götürülür, əməkdaşların peşəkarlıq səviyyəsi artırılır. Həmçinin daşımaların təşkili, aviasiya təhlükəsizliyi, hava gəmilərinə texniki xidmət və başqa bu kimi sahələrin əməkdaşlarının Milli Aviasiya Akademiyasının “Pilotların Hazırlığı Mərkəzi”ndə təşkil olunmuş ixtisasartırma kurslarında iştirakı təmin olunur.

Bu gün Naxçıvan Beynəlxalq Hava Limanından yerli hava xətləri ilə Bakı şəhərinə, beynəlxalq hava xətləri ilə isə Moskva və İstanbul şəhərlərinə uçuşlar həyata keçirilir. Uçuşların təhlükəsizliyinin təmin olunması və sərnişinlərə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Naxçıvan Beynəlxalq Hava Limanında işçilər üçün hərtərəfli iş şəraiti yaradılmış, aerovağzal binası ən müasir tələblər səviyyəsində qurulmuşdur. Dövlətimiz tərəfindən bu tədbirlər ona görə həyata keçirilir ki, ölkəmizə gələn qonaqların və əhalinin rahatlığı hava limanlarında təmin olunsun. Naxçıvan Muxtar Respublikası üçün hava nəqliyyatında xidmətin hərtərəfli təşkili daha vacibdir. Çünki muxtar respublikaya gələn qonaqlar əsasən hava limanından istifadə edirlər. Hava limanında yaradılan şərait, göstərilən xidmət gələn qonaqlarda Naxçıvan haqqında ilk təəssürat yaradır. Ona görə də işçilər yaradılan şəraitdən səmərəli istifadə etməli, qurulanları qoruyub saxlamalı, xidməti vəzifələrini öyrənməli, nümunəvi xidmət göstərməlidirlər”.***

*Kollektiv bundan sonra da fəaliyyətini qarşıya qoyulan vəzifələrin icrası istiqamətində quracaq, sərnişinlərə nümunəvi xidmət göstəriləcəkdir.*

***Naxçıvan Beynəlxalq Hava Limanının mətbuat xidməti***



## GUAM ölkələrinin gömrük xidməti nümayəndələri Naxçıvana gəlib



*Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova gömrük xidməti nümayəndələri GUAM-ın Ticarətə və Nəqletməyə Yardım Layihəsinin Rəhbəredici Komitəsinin sayca 26-cı iclasında iştirak etmək üçün Naxçıvana gəliblər.*

Səfər proqramının ilk günündə qonaqlar ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Qonaqlar Şahtaxtı və Sədərək sərhəd-keçid məntəqələrinin iş prinsipi və fəaliyyəti ilə də tanış olublar. İritonnajlı avtomobillərlə daşınan yüklərə gömrük nəzarətini həyata keçirmək məqsədilə sərhəd-keçid məntəqələrində qurulan X-Ray tipli rentgen nəzarət qurğularının və gömrük anbarlarının fəaliyyəti ilə yaxından maraqlanan gömrük xidməti nümayəndələri muxtar respublikada müasir gömrük infrastrukturunun formalaşdırılmasının onlarda yüksək təəssürat yaratdığını bildiriblər.

Sədərək Gömrük İdarəsi üçün yeni qurulan müasir gömrük kompleksinin layihəsi və bu istiqamətdə görülən tikinti-quruculuq işləri ilə də tanış olan qonaqlar indi dünyada belə nəhəng və müasir gömrük məntəqələrinin az-az tikildiyini vurğulayıblar.

Duzdağ Fizioterapiya Mərkəzinin fəaliyyəti ilə tanışlıq zamanı məlumat verilib ki, 350 yerlik xəstəxanada havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan mərkəzə dünyanın bir çox ölkələrindən müraciətlər olur.

Qonaqlar "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olublar.

GUAM ölkələrinin gömrük xidməti nümayəndələrinə Naxçıvan Biznes Mərkəzində muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri barədə məlumat verilib. Bildirilib



ki, bu gün muxtar respublikada 367 növdə məhsul istehsal edilir. Bu məhsulların 121 növü ərzaq, 246 növü qeyri-ərzaq məhsullarıdır. 107-si ərzaq, 237-si qeyri-ərzaq olmaqla, 344 növdə məhsula olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilir.

Ağbulaq İstirahət Mərkəzi ilə də tanış olan qonaqların Batabat yaylağında gəzintisi təşkil olunub.

* * *

İyun ayının 1-də Naxçıvanda GUAM-ın Ticarətə və Nəqletməyə Yardım Layihəsinin Rəhbəredici Komitəsinin işçi qrupunun iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli qonaqları salamlayaraq işçi qrupun iclasına uğurlar arzulayıb. GUAM Katibliyi proqramlarının əlaqələndiricisi Səbuhi Təmirov Ticarət və Nəqletməyə Yardım Layihəsi barədə ətraflı məlumat verib.

Gürcüstan, Ukrayna və Moldova gömrük xidməti nümayəndələri görüşün yüksək səviyyədə təşkilinə görə minnətdarlıq ediblər.

İşçi qrupun iclasında GUAM ölkələri arasında ticarət və nəqletməyə yardımla bağlı gömrük xidmətləri tərəfindən həyata keçirilməsi nəzərdə tutulan işlərin icra vəziyyəti və üzv ölkələrin gömrük xidmətləri arasında mal və nəqliyyat vasitələrinə aid prosedurların nəticələrinin qarşılıqlı tanınması üzrə sazişin qüvvəyə minməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Tərəflər malların və nəqliyyat vasitələrinin tranzit keçirilməsinə yardım haqqında sazişin və hava nəqliyyatında gömrük hüquqpozmalarına qarşı birgə mübarizəyə dair protokolun layihəsini müzakirə ediblər.

Qeyd edək ki, Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat olan GUAM-ın Ticarətə və Nəqletməyə Yardım Layihəsinin Rəhbəredici Komitəsinin 26-cı iclası bu gün Naxçıvan şəhərində keçiriləcək.

## Azərbaycan və Türkiyə Gömrük xidmətləri hüquqpozmalara qarşı mübarizədə qarşılıqlı əməkdaşlığın gücləndirilməsində maraqlıdır

May ayının 31-də Naxçıvanda Azərbaycan və Türkiyə Gömrük xidmətlərinin əməkdaşları arasında hüquqpozmalara qarşı mübarizədə qarşılıqlı əməkdaşlığın gücləndirilməsi mövzusunda işgüzar görüş keçirilib. Görüş iştirakçıları əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən görüşdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Gömrük Sahəsində Hüquqpozmalara Qarşı Mübarizə Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Baba Salayev qeyd edib ki, son illər iki ölkə arasında gömrük sahəsində qarşılıqlı əməkdaşlığın artırılması üçün mühüm işlər görülüb.

Birgə əməkdaşlıq nəticəsində hüquqpozmaların azaldığını qeyd edən Türkiyə Respublikası Gömrük və Ticarət Nazirliyinin Gömrüklərin Mühafizəsi İdarəsinin rəisi Abdullah Soylu bu istiqamətdə işlərin daha da gücləndirilməsinin vacibliyini qeyd edib.

Tərəflər qarşılıqlı görüşün Naxçıvanda keçirilməsinin həm də rəmzi məna kəsb etdiyini vurğulayaraq iki qardaş ölkənin məhz bu qədim oğuz yurdu vasitəsilə bir-birinə birləşdiyini qeyd ediblər.

Görüşdə hüquqpozmalara qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq, qaçaqmalçılıqla birgə mübarizə, məlumat mübadiləsi, risk analizi, seminar və kursların təşkili və digər məsələlər müzakirə olunub, bu sahədə işlərin icrası üçün məsul şəxslər müəyyənləşdirilib.

Sonda xatirə hədiyyələri təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Naxçıvanlı tələbələr "Huawei" şirkətində təcrübə keçəcəklər



Çin Xalq Respublikasının "Huawei" şirkəti tərəfindən muxtar respublikada "Gələcəyin İKT sahəsindəki toxumları" adlı ikinci proqram-layihə həyata keçirilib.

İyunun 1-də bu münasibətlə "Naxçıvan" Universitetində keçirilən tədbirdə diqqətə çatdırılıb ki, cari ilin mart ayında şirkətin baş vitse-prezidenti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşdə böyük ehtiram əlaməti olaraq, Ali Məclis Sədrinin təhsil aldığı orta məktəbin bir qrup şagirdinin Çinə ekskursiya etməsini təklif edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri isə 2017-ci ildə "Huawei"nin yay təlim məşğələlərində iştirak edəcək tələbələrin sayının artırılmasını və Naxçıvan Müəllimlər İnstitutunun informatika ixtisası üzrə təhsil alan tələbələrin də təlimlərə cəlb edilməsini daha məqsədəuyğun hesab edib. Ötən il təşkil edilmiş yay təlim məşğələlərində Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universitetindən 6 tələbə iştirak etmişdirsə, bu il Naxçıvan Müəllimlər İnstitutunda təhsil alan tələbələr də layihəyə cəlb olunub və "Huawei" şirkətinin yay təlim mərkəzində təcrübə keçəcək tələbələrin sayı artırılaraq 12-yə çatdırılıb.

"Huawei" Şirkətinin Bakı şəhərində yerləşən baş ofisinin direktoru Çao Zeyol proqram-layihə haqqında tələbələrə ətraflı məlumat verib. O bildirib ki, 40 tələbənin qatıldığı proqram-layihə çərçivəsində komissiya üzvləri informasiya-kommunikasiya texnologiyaları sahəsində biliyə malik olan və ingilis dilində kifayət qədər özünü təqdimetmə bacarığı olan ən yaxşı 12 tələbəni seçərək Çin Xalq Respublikasına istehsalat təcrübəsinə göndərəcək. İkihəftəlik proqram çərçivəsində tələbələr əvvəlcə Pekinə gedərək Çin mədəniyyəti ilə tanış olacaqlar. Daha sonra onlar "Huawei" şirkətinin Şenjen şəhərində yerləşən baş qərargahında informasiya-kommunikasiya texnologiyalarının öyrənilməsi və istehsalı üzrə təlimlərdə iştirak edəcəklər.

İlkin mərhələdə muxtar respublikanın 3 ali təhsil ocağından birinci mərhələdən keçmiş 20 tələbənin seçilmiş mövzular üzrə təqdimatı dinlənilib və ən yaxşı 12 tələbə seçilib.

Dünyanın informasiya-kommunikasiya texnologiyaları sahəsində aparıcı şirkətlərindən olan "Huawei" şirkəti Azərbaycanda fəaliyyətinə Naxçıvandan başlayıb. Şirkət tərəfindən Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə əməkdaşlıq çərçivəsində 2014-cü ildə Məhdud Fiziki İmkanlılar üçün Regional İnformasiya Mərkəzində 150 yerlik Distant Tədris Mərkəzi qurulmuş, 2015-ci ildə "Naxçıvan" Univeristetində İKT mərkəzi istifadəyə verilmiş, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinə iki böyükölçülü monitor-planşet hədiyyə edilmişdir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi və struktur bölmələrində praktiki işlərlə təmin olunur, istehsalat təcrübələri keçirlər. Tələbələrin müxtəlif layihələr vasitəsilə xaricə göndərilmələrinin təmin olunması da bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır.

***Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Yeni nəşrlər elmin inkişafına töhfə verir

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının müdiri, kimya elmləri üzrə fəlsəfə doktoru, dosent Qorxmaz Hüseynovun "Nanomaterialların alınma metodları" kitabının və həmin institutun İqtisadiyyat şöbəsinin müdiri Sevinc Cabbarovanın "Naxçıvan Muxtar Respublikasında əmək potensialının formalaşması və istifadəsi" adlı monoqrafiyasının təqdimatı olub.

Bölmənin Mərkəzi Elmi Kitabxanasında keçirilən tədbirdə institutun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasov çıxış edərək ictimaiyyətə təqdim olunan hər iki nəşr haqqında ümumi məlumat verib və müəlliflərə elmi fəaliyyətlərində uğurlar arzulayıb.

Kimya elmləri doktoru Bayram Rzayevin "Müasir dövrdə nanotexnologiyada geniş istifadə olunan nanomateriallar haqqında qiymətli əsər" mövzusunda məruzəsi dinlənilib. Bayram Rzayev kitabda nanohissəciklərin və nanomaterialların alınmasının fiziki və kimyəvi metodları, bir, iki, üçölçülü kip nanomaterialların hazırlanması və tətbiq sahələri barədə məlumatların yer aldığını bildirib.

"Naxçıvan Muxtar Respublikasında əmək potensialının formalaşması və istifadəsinə həsr edilmiş əsər" mövzusunda məruzə ilə çıxış edən iqtisad üzrə fəlsəfə doktoru, dosent Cavadxan Qasımov qeyd edib ki, rus dilində üç fəsildən ibarət olan yeni nəşrdə əmək potensialının formalaşması və inkişafı amilləri, əmək potensialından səmərəli istifadəyə demoqrafik dəyişikliklərin təsiri işıqlandırılıb.

Daha sonra məruzə ətrafında institutun böyük elmi işçisi, kimya üzrə fəlsəfə doktoru, dosent Aliyə Rzayeva və İqtisadiyyat şöbəsinin kiçik elmi işçisi Eltun İbrahimov çıxış ediblər.

Sonda müəlliflər tədbir iştirakçılarına minnətdarlıqlarını bildiriblər.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Ölkəmizin aparıcı media nümayəndələri muxtar respublikanın görməli yerləri, təhsil və mədəniyyət müəssisələri ilə tanış olublar



Xəbər verdiyimiz kimi, mayın 31-də Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun təşkilatçılığı ilə ölkəmizin aparıcı media nümayəndələri muxtar respublikaya səfərə gəliblər. Səfər çərçivəsində onlar Naxçıvanın tarix-memarlıq, dini-mədəni abidələri ilə tanış olublar.

Gəzinti "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə tanışlıqla başlayıb.

Qonaqlar Naxçıvan xanlığının tarixini özündə yaşadan Xan sarayında olublar. Bildirilib ki, muzey Naxçıvan xanlığının dövlətçilik tariximizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə Naxçıvan xanlığının dövlət və döyüş bayraqları, arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlığının və Kəngərli nəslinin tarixi ilə bağlı nəşr olunmuş kitablar, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir. Qonaqlara bu torpağın yetirməsi olan görkəmli generalların həyat və fəaliyyəti barədə ətraflı məlumat verilib.

Media nümayəndələri Möminə xatın türbəsi və Açıq Səma Altında Muzeyə maraqla baxıblar.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksini və Nuh Peyğəmbərin məzarüstü türbəsini ziyarət edən qonaqlara bu qədim tarixi məkanlar haqqında ətraflı məlumat verilib.

Media nümayəndələri Naxçıvan Avtomobil Zavodunun istehsal potensialı ilə də maraqlanıblar, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində, Duzdağ Fizioterapiya Mərkəzində olublar.

İyunun 1-də qonaqlar Sədərək rayonunun Heydərabad qəsəbəsinə gediblər. Burada onlara məlumat verilib ki, qəsəbə düşmənlə sərhəddə yerləşir. Ötən əsrin 90-cı illərində döyüş meydanına çevrilən qəsəbədə bu gün genişmiqyaslı quruculuq işləri aparılıb, müasir binalar inşa olunub, yeni istehsal müəssisələri yaradılıb.

Qonaqlar Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyi, qəsəbədə yeni inşa olunan 48 mənzilli çoxmərtəbəli yaşayış binası və burada yerləşən hərbi hissə ilə tanış olublar.

Şərur və Kəngərli rayonlarının gəzməli-görməli yerləri, idman və təhsil müəssisələri, tarixi abidələri, Şahtaxtı gömrük-keçid məntəqəsi ilə də tanış olan media nümayəndələrinə bölgənin tarixi və turizm potensialı barədə ətraflı məlumat verilib.

***Xəbərlər şöbəsi***

## Körpələr Tanrı əmanətidir

### Bu əmanətə sahib çıxmaq, onları qorumaq isə hər bir insanın mənəvi borcudur



***Xoşagəlməz hadisələr, münaqişələr, yoxsulluq, xəstəlik, ölüm... Cəmiyyətin ən həssas üzvləri olan məsum körpələr, bəzən taleyin bu kimi ağır sınaqlarının cəzasını çəkməyə məhkum olurlar. Bu cür sınaqlar körpə fidanların valideyn sevgisinə, ailə qayğısına möhtac olduqları bir zamanda onları ata-ana nəvazişindən məhrum edir, sevinclərini əlindən alır, yalnız, kimsəsiz qoyur. Bəzən günahsız mələklərin həyat yolunu Körpələr evindən salan da taleyin amansız hökmüdür.***

Uzun illərdir ki, Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinə getmək istəyi könlümdən keçsə də, sözün düzü, gözləri qapıya dikilmiş, həsrətlə yol gözləyən bu məsum balalara baş çəkməyə cəsarətim çatmırdı. Düşünürdüm ki, gözlərindəki kədəri gördükdə istəmədən onlara qəlbimdəki kövrəkliyi, həssaslığı hiss etdirə bilərəm. Bu isə onların fikrində fərqli düşüncələr yarada bilər. Məsələn, acımaq kimi... Lakin, əslində, hiss etdiyim tam olaraq bu deyildi. Sadəcə, valideyn qayğısından, sevgisindən məhrum olan uşaqların sığındığı bu ünvanın – Körpələr evinin adını eşitdikdə, həmin körpələrin qəlbində olan nisgilin baxışlarında əks olunan xiffətə çevrilməsi qeyri-iradi bir üzüntü hissi yaradır, ruhuma bir kədər hopurdu.

Yaxın günlərdə yolumu getmək arzusunda olduğum, lakin cəsarət edib gedə bilmədiyim Körpələr evindən saldım. Binanın tam qarşısına çatmışdım ki, ayaqlarımdan daş asılmış kimi addımlarımın sürəti zəiflədi. Qəlbim daha sürətlə döyünməyə başladı. Bəlkə də, hələ onlarla yaxından tanış olmağa hazır deyildim, bəlkə də, onlara bir ana qucağının istiliyini hiss etdirə bilməyəcəkdim. Amma hər birini təktək bağrıma basıb saçlarına sığal çəkmək, az da olsa, bu hisslərdən məhrum olan körpələrə sevgi, şəfqət hissi yaşatmaq arzusunda idim.

Qapını astaca açıb içəri daxil oldum. Məni qarşılayan ağxalatlı qadın nə üçün gəldiyimin səbəbini soruşdu. Bir anlıq sanki dilim tutulmuş kimi nə deyəcəyimi bilmədim. Sonra astaca: “Əgər icazə versəniz körpələrə baş çəkmək istəyərdim”,– dedim. O isə bunun üçün baş həkimdən icazə almağımın lazım olduğunu bildirdi. Elə dəhlizdə rastlaşdığım həkimlə salamlaşdıq, bura gəlmə səbəbimi ona izah etdim. O isə: “Siz zəhmət olmasa otaqda əyləşin, uşaqların yemək saatıdı, onlara baş çəkim gəlirəm”, – dedi. Sözün açığı, bu qayğı məni çox təəccübləndirdi. Bəzən bir ananın diqqətindən yayınan öz körpəsinin yemək saatı, yuxu rejimi bu qayğıkeş həkimin yadından çıxmamışdı. Az sonra üzü nurlu, səmimiyyət dolu həkim otağa daxil oldu. Bir az söhbətləşdik. Müəssisənin fəaliyyətindən, dövlətin körpələrə göstərdiyi qayğıdan və uşaqların taleyindən söhbət açdı.

Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin baş həkimi Rəsmiyyə Xasayevanın dediklərindən: “1937-ci ildə yaradılan bu səhiyyə ocağı əvvəllər, sadəcə, Körpələr evi kimi fəaliyyət göstərib. Uzun illər xüsusi binası və lazımi şəraiti olmayan bu müəssisə son illər dövlətin yüksək diqqət və qayğısı ilə əhatə olunub. Valideyn himayəsindən məhrum olan uşaqlar üçün hər cür şəraitlə təmin olunan bu müasir bina 2007-ci il noyabr ayının 26-da istifadəyə verilib. Ancaq muxtar respublikada insanların günü-gündən maddi rifah halının yaxşılaşması, məşğulluğun təmin olunması, sosial vəziyyətin müsbətə doğru irəliləyişi, boşanma hallarının minimuma enməsi Körpələr evinə üz tutanların sayına da təsir edib. Müəssisənin fəaliyyətə başladığı illərdə burada olan kimsəsiz uşaqlar isə hər iki valideynini itirmiş körpələr olub. Demək olar ki, son illər buraya, ümumiyyətlə, övladından imtina edən valideynlər müraciət etməyiblər. Bu səbəbdən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 14 fevral 2009-cu il tarixli Sərəncamı ilə Tədbirlər Planı təsdiq olunmuş və Körpələr evinin fəaliyyəti, eyni zamanda inkişaf qüsuru olan uşaqların ailələrinə dəstək mərkəzi kimi davam etdirilmişdir. Hazırda burada 13 fiziki qüsurlu, sağlamlıq imkanı məhdud uşaq hərtərəfli dövlət qayğısı ilə əhatə olunub.



İkimərtəbəli bu binanın əsas korpusu 16 çarpayılıq yataq və iş otaqlarından ibarətdir. Birinci mərtəbədə yeməkxana, mətbəx, anbar, geyim və oyun otağı, 8 yataq otağı və hamam yerləşir. İkinci mərtəbədə isə iclas zalı, baş həkim, tibb bacısı və həkim otaqları fəaliyyət göstərir. Həyətyanı sahədə uşaqların əyləncəsi üçün uşaq-əyləncə vasitələri quraşdırılıb, istirahət guşəsi yaradılıb.

Burada tərbiyəçi müəllimlər tərəfindən məktəbə hazırlıq kursu keçirilir ki, bu da ayrı-ayrı uşaqlar üçün xüsusi proqram əsasında aparılır. Mərkəzdə dayələr, tərbiyəçi müəllimlər öz işlərini layiqincə yerinə yetirir, buradakı körpələrin üzlərində təbəssüm görmək, könüllərini xoş etmək üçün onların qayğısını çəkir, bu körpə fidanlara öz uşaqları kimi həssas yanaşırlar. Daim tibbi nəzarətdə olan uşaqların sağlamlıqları diqqət mərkəzində saxlanılır, qidalanmalarına xüsusi diqqət yetirilir.

Mərkəz ictimaiyyətin də diqqət mərkəzindədir. İstər bayram, istərsə də adi günlərdə buraya Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Səhiyyə Nazirliyinin, Naxçıvan Dövlət Kukla Teatrının, Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Tibb Kollecinin, həmçinin digər idarə və təşkilatların kollektivləri böyük sevgi və qayğı ilə balaca fidanların görüşünə gəlir, onlara mənəvi dəstək olurlar”.

Rəsmiyyə həkim məni buradakı şəraitlə yaxından tanış etdi. Mərkəzdəki səliqə-sahman, körpələrin rahatlığı üçün yaradılan şərait, müəllimlərin səbirlə, təmkinlə uşaqlara dərs izah etmələri, dayələrin diqqət və qayğı ilə körpələrə yanaşması qəlbimdə fərəh hissi oyatdı, şahidi olduğum bu cür mənzərə könlümü oxşadı.

Dövlətimiz hər zaman bütün uşaqların yüksək sosial-mənəvi mühitdə böyüməsinə çalışır, onların firavan yaşayış səviyyəsinin, təlim-tərbiyəsinin, təhsilinin, sağlamlığının, sosial müdafiəsinin yüksək səviyyədə təşkilinə hərtərəfli şərait yaradır. Muxtar respublikamızda hər zaman xüsusi qayğıya ehtiyacı olan uşaqlara həssaslıqla yanaşılır, onların hüquqlarının qorunması, asudə vaxtlarının səmərəli təşkili, cəmiyyətə inteqrasiya olunmaları diqqət mərkəzində saxlanılır. Dövlətimiz tərəfindən fiziki imkanları məhdud olan uşaqların valideynləri üçün yaradılan bu şərait uşaqlara mərhəmətin, xeyirxahlığın, diqqət və qayğının bariz nümunəsidir.

Hər bir valideyn öz övladı ilə yanaşı, sağlamlıqlarını itirmiş və valideyn himayəsindən məhrum uşaqlara da az da olsa qayğı və nəvaziş göstərsə həm Tanrı qarşısında xeyirxah əməl sahibi olar, həm də belə körpələrin yaşama həvəsləri, həyata inamları artar. Hər birimiz yalnız bayramlarda deyil, adi günlərdə də onları yada salmalı, Körpələr evini ziyarət etməli və onlara mənəvi dəstək olmalıyıq. Bununla həm də uşaqlarımızı gələcəyimiz kimi qoruyan, onlara hərtərəfli diqqət və qayğı göstərən dövlətimizin bu istiqamətdə həyata keçirdiyi tədbirləri də dəstəkləmiş olarıq. Çünki uşaqlar xəyal və arzuların ümid tumurcuğu, ailə qalasının misilsiz sevinc qaynağı, cənnətin ətrini dünyaya bəxş edən yeganə çiçək, Tanrının insan övladına əmanətidir. Tanrının əmanətinə sahib çıxmaq, onu qorumaq isə hər bir insanın mənəvi borcudur.

**Gülcamal TAHİROVA**

*Naxçıvan Dövlət Universitetində Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Prezident təqaüdçüsü, professor Səidə Məmmədovanın 75 illik yubileyi münasibətilə tədbir keçirilib.*

## Səidə Məmmədovanın 75 illik yubileyi qeyd edilib

Tədbiri giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq yubilyar haqda xoş sözlərini tədbir iştirakçılarıyla bölüşüb. O, dirijorun milli musiqi mədəniyyətimizə verdiyi töhfələrdən bəhs edib. Qeyd edib ki, o, 1996-cı ildən etibarən rəhbərlik etdiyi İfaçılıq kafedrasında gərgin və yorulmaz əməyi sayəsində bu günədək işinin öhdəsindən layiqincə gəlir. Öz işinə olan məsuliyyətini gənc nəslə örnək göstərən rektor yubilyarın bəstəkarlıq sahəsində də qabiliyyətindən danışıb. Vurğulanıb ki, məşhur şairlərin sözlərinə yazdığı musiqilər bu gün də dillər əzbəridir. Rektor Səidə müəlliməyə cansağlığı, yubilyara hər zaman sənətdə var olmağı arzulayıb.

İncəsənət fakültəsinin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova çıxışında Səidə Məmmədovanın həyat və fəaliyyətindən ətraflı söhbət açıb.

Qeyd olunub ki, dirijorun fəaliyyəti hər zaman yüksək qiymətləndirilib, o, müxtəlif fəxri adlar və dövlət mükafatları ilə, diplom və fəxri fərmanlarla təltif olunub.

Sonra Universitet televiziyasının 2012-ci ildə hazırladığı, Səidə Məmmədovanın həyat və fəaliyyətindən bəhs edən filmin nümayişi olub.

Tədbirin bədii hissəsində Səidə Məmmədovanın akademik İsa Həbibbəylinin sözlərinə yazdığı “Naxçıvanım”, Kəmalə Ağayevanın sözlərinə yazdığı “O kaman səsi” mahnıları səsləndirilib. Konservatoriyanın müəllim və tələbələrinin ifasında musiqi nömrələri səsləndirilib.

Sonda yubilyar tədbirin təşkilatçılarına minnətdarlıq edib, keçdiyi ömür yolundan danışıb, gənc sənətkarlarla sənət təcrübəsini bölüşüb.

**Səadət ƏLİYEVA**

## Karateçilərimiz Gürcüstandan uğurlu nəticə ilə qayıdıblar

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının yetirmələri növbəti uğura imza atıblar. Belə ki, Gürcüstanın paytaxtı Tbilisi şəhərində karate-do üzrə “Georgia open” turniri keçirilib. İki gün davam edən turnirdə iki idmançımız medal qazanmağa müvəffəq olub. 14-15 yaş qrupunda 70 kiloqram çəki dərəcəsində tatamiyə çıxan Aslan İsmayılov bürünc medal qazanıb. 16-17 yaş qrupunda mübarizə aparan Sərcan Məmmədov (-55 kiloqram) da eyni uğuru təkrarlayıb.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və medalla mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 19 iyun 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlak haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 15% güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin miqdarı (manat) |
|---|---|---|---|---|---|
| 1. | Babək “Şərab 2 Yeddilər-ASK” MMC-yə məxsus əmlak | Naxçıvan şəhəri, Hacıniyyət kəndi | 192000 | 163200 | 9600 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 % məbləğində beh Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 16 iyun 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 19 iyun 2017-ci il tarixdə saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 453